Xalq qəzeti.- 2024.- 19 iyul, (№ 150).- S.8.

# COP29: Azərbaycanın ekoloji siyasət prioritetləri

**"Beynəlxalq şəraitdə artan geosiyasi gərginlik və qeyri-müəyyənlik bizi iqlim dəyişikliyi ilə bağlı əməkdaşlıq və onun həlli imperativindən yayındırmamalıdır". Bu barədə COP29-un prezidenti Muxtar Babayevin noyabr ayında Bakıda keçiriləcək iqlim tədbirinin iştirakçılarına göndərdiyi məktubda deyilir. Xatırladaq ki, beynəlxalq ictimaiyyətə ünvanlanan bu məktub illik iqlim sammitinin planlarını və gözləntilərini əks etdirir.**

Muxtar Babayev qeyd edib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Paris sazişi və iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal fəaliyyət üçün lakmus kağızı olacaq. COP29-un prezidenti əsas prinsipləri vurğulayıb, yeni iqlim hədəflərinin ambisiyalarını artırmaq üçün nəzərdə tutulan fəaliyyətlərdən bəhs edib: "COP29 sədrliyi üzrə məsləhətləşmələrimiz ərzində biz iki paralel bəndə əsaslanan baxışımızı təqdim etdik. Ambisiyaların artırılması və fəaliyyət üçün şəraitin yaradılması, eləcə də iqlimin maliyyələşdirilməsi bizim əsas prioritetimizdir. Bu bəndlər bir-birini gücləndirir. Əsas mandatların və fəaliyyətlərin uğurla həyata keçirilməsi etimadın, həmrəyliyin və impulsun möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edəcək", – deyə məktubda vurğulanıb.



Bununla yanaşı, məktubda COP29 sədrliyinin tərəflərlə fəal əməkdaşlığı davam etdirəcəyi bildirilib və qarşıdan gələn sessiyanın uğurla keçəcəyinə ümidlər ifadə edilib.

**XQ**